**Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə**
**Milli Əlaqələndirmə Şurasının üçüncü iclasının**

**PROTOKOLU № 3**

**Bakı şəhəri** **22 fevral 2017-ci il**

**İştirak edirdilər:**

**İclasın sədri:**

Əli Əhmədov - Azərbaycan Respublikasının Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri

Şahin Mustafayev - iqtisadiyyat naziri, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədr müavini

Hüseyn Hüseynov - İqtisadiyyat Nazirliyi İqtisadi və sosial sahələrin inkişafı şöbəsinin müdir müavini, şuranın katibi

**İclas iştirakçıları (Şura üzvləri):**

Tahir Budaqov - Dövlət Statistika Komitəsinin sədri
Hicran Hüseynova - Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri
Vaqif Əliyev - mədəniyyət və turizm nazirinin birinci müavini
Mahmud Məmməd-Quliyev - xarici işlər nazirinin müavini
Elsevər Ağayev - səhiyyə nazirinin müavini
İdris İsayev - əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini
Ceyhun Bayramov - təhsil nazirinin müavini
Rauf Hacıyev - ekologiya və təbii sərvətlər nazirinin müavini
İntiqam Babayev - gənclər və idman nazirinin müavini
Seyfəddin Talıbov - kənd təsərrüfatı nazirinin müavini
Toğrul Musayev - ədliyyə nazirinin müavini
Fuad Hüseynov - Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin sədr müavini

**Digər iştirakçılar:**

Faik Uyanık - BMT İnkişaf Proqramının Türkiyədəki mətbuat katibi
Qulam M.İshaqzai - BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisi
Ruslan İsmayılzadə - BMT-nin Bakı ofisinin mətbuat katibi
İradə Əhmədova - BMT-nin Bakı ofisinin Əlaqələndirmə üzrə müşaviri
Vilayət Vəliyev - İqtisadi inkişaf və layiqli məşğulluq üzrə İşçi qrupun sədri
Fuad Hüseynov - Sosial məsələlər üzrə İşçi qrupun sədri
Rasim Səttarzadə - Ekoloji məsələlər üzrə İşçi qrupun sədri

**İclasın gündəliyi:**

1. 2017-ci ilin iyul ayında keçirilməsi nəzərdə tutulmuş Yüksək Səviyyəli Siyasi Forumuna (HLPF) Dayanıqlı İnkişaf Məqsədləri üzrə Azərbaycan Respublikasının ilkin hesabatının hazırlanması

prosesinin cari vəziyyəti;

2. Təhsil Nazirliyi tərəfindən Dayanıqlı İnkişaf Məqsədlərinin müxtəlif təhsil pillələri və səviyyələri üzrə tədris proqramlarına daxil edilməsi məsələsinin müzakirəsi;
3. BMT-nin fəaliyyət planına uyğun olaraq Dayanıqlı İnkişaf Məqsədlərinin maarifləndirilməsi prosesi üzrə müxtəlif qruplarla görüşlərin, simpoziumların, konfransların keçirilməsi üçün tədbirlərin təşkili ilə bağlı məsələlərin müzakirəsi;
4. Cari məsələlərin müzakirəsi.

Milli Əlaqələndirmə Şurasının 3-cü iclasında aşağıdakı məsələlər üzrə **qərarlar qəbul edildi:**

1. Yüksək Səviyyəli Siyasi Forum üçün Hesabatın hazırlanması məqsədilə qurumlar tərəfindən müvafiq məlumatlar qısa zamanda Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibliyinə təqdim edilsin;
2. Könüllü Hesabatın ilkin variantı 1 aprel 2017-ci il tarixinədək Şuraya təqdim olunsun;
3. Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibliyi tərəfindən BMT-nin İstanbul Regional Ofisinin əməkdaşları ilə birgə fokus qrupları əhatə etməklə Maarifləndirmə Strategiyası hazırlanaraq Şuraya təqdim edilsin;
4. Azərbaycan Respublikası Milli Elmlər Akademiyası, gənclər, qadınlar, qeyri hökumət təşkilatları, özəl sektor və sahibkarlarla maarifləndirmə tədbirləri keçirilsin.

**İclasın sədri,**
**Baş nazirin müavini** **Əli Əhmədov**

**İclasın katibi** **Hüseyn Hüseynov**